# TARİXİ HƏQİQƏTLƏRİN SOSİOLOJİ DƏRKİ
## (Akademik Cəmil Quliyevin 50 illik elmi yaradıcılığı kontekstində)

**İ.Ə.RÜSTƏMOV**
*Bakı Dövlət Universiteti*
*Izzet.Rustamov@BSU.az*

*Məqalədə akademik Cəmil Quliyevin elmi yaradıcılığından, onun Azərbaycanda elmin inkişafındakı rolundan bəhs edilir.*

XX əsrin 50-ci illərində mən Bakı Dövlət Universitetinin tarix fakültəsinin Fəlsəfə şöbəsində oxuyarkən Cəmil müəllimin tələbəsi olmuşam. Cavan, enerjili, Moskva təhsilindən yenicə qayıtmış müəllimimin o illərini xoş təssüratlarla xatırlayıram və onu indi də yaxşı tanıdığıma görə xüsusi qürur hissi keçirirəm. Bu yaxınlarda Cəmil müəllimin çapdan çıxmış «Tarix: düşüncələr, qeydlər…» adlı çox sanballı kitabını («Elm» nəşriyyatı – 2004; 764 s.) töhfə kimi alarkən, doğrusu, çox sevindim, müəllimimin kitabın iç qabığında yazılmış və mənə ünvanlanmış xoş sözlərindən xeyli həyəcanlandım…

Kitabın iç qabığında «Xarı bülbül»ün və qədim Şuşamızın təsviri verilmişdir. Kitabın son iç qabığında da bu təsvir təkrar olunur. Bu təsvirləri mən şərti olaraq Cəmil müəllimin monumental əsərlərinin «epiloqu» və «proloqu» olaraq qəbul etdim. Həqiqətən də, əsərin ictimai-siyasi motivləri və fəlsəfi-sosioloji mənasını düzgün başa düşmək üçün «Xarı bülbül» və Şuşanın təsvirinin müstəsna rəmzi əhəmiyyəti vardır.

Nəfis şəkildə nəşr olunmuş kitabda «Xarı bülbül»lə başlanan ömür yolu ilə, dəyərli, nümunəvi bir insan həyatı ilə, «Xarı bülbül» və Şuşa həsrətilə yurdundan nisgilli olan böyük tarixçi alimin, xalqına, Vətəninə, Azərbaycan elinə hədsiz bağlı, səmimi, təbii ürək çırpıntılarının burulğanına düşmüş görkəmli bir şəxsiyyətin, bütün şüurlu həyatını, ömrünü doğma Azərbaycanın tarixinin tədqiqinə həsr etmiş zəhmətkeş tarixçi alimin portreti ilə tanış oluruq. Oxucuya təqdim olunan və 50 illik bir dövrü əhatə edən materialların toplanmış olduğu bu kitab saysız-hesabsız sanballı əsərlərində, elmi məqalə və yazılarında, çıxış və nitqlərində coşub alovlanan tarixçi-ziyalı alim ömrünün özünəməxsus salnaməsi kimi də qəbul oluna bilər.

Mən Cəmil müəllimin tərcümeyi-halından, müxtəlif dövrlərdə tutmuş olduğu vəzifələrdən xüsusi bəhs etməyəcəyəm. Bunlar oxuculara yaxşı məlumdur. Əsas məqsədim kitabda şərhini tapmış problem və məsələlərlə əlaqədar bəzi fəlsəfi-sosioloji mülahizələrimi söyləməkdir.

Hər şeydən əvvəl, Azərbaycan Xalq Cümhuriyyətinə münasibət məsələsinə toxunmaq istərdim. Aydındır ki, totalitar rejim dövründə dəbdə olan, daha doğrusu, hakim kommunist ideologiyasının sərt tələblərinə uyğun olaraq ilk Xalq Demokratik Cümhuriyyətinin fəaliyyətinə bir növ mənfi, soyuq münasibət formalaşmışdı. O

vaxtlar yaranmış hökumət də «Müsavat hökuməti» kimi mənfi planda hallandırılırdı. İstər-istəməz ilk Demokratik Cümhuriyyətin xadimləri də bəzi istisnalarla bir qayda olaraq «müsavat xadimləri» adlandırılaraq tənqid olunurdular. Təbii ki, görkəmli tarixçi alim akad. Cəmil Quliyevin ilk Xalq Cümhuriyyətinin fəaliyyətinə həsr olunmuş yazıları da müəyyən mənada bu abu-hava ilə aşılanmışdır. Lakin biz akademikin bununla əlaqədar elmi yazılarına tarixi-xronoloji baxımdan yanaşsaq, görərik ki, onun XDC-nin, ilk müsavat hökumətinin fəaliyyəti ilə bağlı fikirlərində müsbət istiqamətdə ciddi təkamül baş vermişdir. Alim məruzə və çıxışlarında, mətbu yazılarında bununla əlaqədar çox maraqlı, eyni zamanda qiymətli fikirlər söyləmişdir.

Daha sonra Cəmil Quliyevin sözü gedən əsərində çox mühüm yer tutan məsələlərdən biri də Nəriman Nərimanova münasibət problemidir. Cəsarətlə deyə bilərik ki, Azərbaycan xalqının çox görkəmli oğlu, böyük dövlət xadimi, misilsiz maarifçi-pedaqoq, publisist, dramaturq Nəriman Nərimanova, onun dövlətçilik və elmi, ədəbi irsinə müxtəlif dövrlərdə bəslənilmiş münasibətin necə təkamülə uğradığını, doğma Azərbaycanın qurucularından biri kimi Nəriman Nərimanovun tarixi xidmətlərinin obyektiv elmi mövqedən işıqlandırılması baxımından Cəmil müəllimin əsərlərinə olduqca ciddi materiallar daxil edilmişdir. Nəriman Nərimanovun şəninə dəyərli elmi faktlar, tutarlı dəlillər gətirilmişdir. Hamıya məlumdur ki, müasir Azərbaycanda ümummilli demokratik hərəkat, eyni zamanda Xalq Cəbhəsinin hakimiyyəti dövründə Nəriman Nərimanovun dövlətçilik, həmçinin elmi-tarixi irsi ilə əlaqədar mənfi əhval-ruhiyyə formalaşdırılmışdı, N.Nərimanovla əlaqədar ciddi təhriflərə yol verilir. N.Nərimanov məntiqsiz, əsassız olaraq, nahaq yerdən haqsız tənqidlərə məruz qalırdı. Məsələn, bir çox yazılarda N.Nərimanov Zəngəzur torpaqlarının ermənilərə pay verilməsində təqsirli sayılırdı. Cəsarətlə deyə bilərik ki, Cəmil müəllimin əsərlərində toplanmış elmi yazılar N.Nərimanov haqqında həqiqətlərin bir daha bərqərar olunmasında, N.Nərimanovla əlaqədar istər bilərəkdən, istərsə də bilmədən yol verilmiş təhriflərin kənara atılmasında müstəsna əhəmiyyətə malikdir. Cəmil Quliyev hələ vaxtilə N.Nərimanovla bağlı yazılarda qəsdən yol verilmiş təhrif və saxtalaşdırmaların köklərinə qədər gedib çıxır, onun barəsində əsl həqiqətin aşkara çıxarılması üçün ciddi elmi səylər göstərir. Cəmil müəllimin əsərlərində N.Nərimanovun həyatının və fəaliyyətinin müxtəlif dövr və mərhələlərinə aid geniş oxucu kütlələrinə az məlum olan, bəlkə hətta elmi tədqiqatçıların bir çoxunun da diqqətindən kənarda qalan tutarlı elmi məxəzlərdən, tarixi faktlardan və məktublardan, digər elmi dəlillərdən istifadə edilmişdir.

Təqdim olunan əsərdə Cəmil müəllimin Dağlıq Qarabağ problemi ilə bağlı çox dəyərli mülahizələri, elmi düşüncələri, kəsərli-tutarlı yazıları öz əksini tapmışdır. Onun bununla əlaqədar elmi yazılarını, məruzə və çıxışlarını mübaliğəsiz «Qarabağ salnaməsi», Dağlıq Qarabağ problemi ətrafında müxtəlif dövrlərdə baş vermiş proseslərin, hərəkat və mübarizənin, «Qarabağ taleyinin» tarixçəsi kimi də qəbul etmək olar. Əvvəldə dediyimiz kimi, «Toplu»nun iç qabığında Qarabağa məhəbbətin rəmzi, Qarabağ musiqi dünyasının əks-sədası, timsalı olan «Xarı bülbül» kimi qəbul olunan gülün təsvirinin verilməsi heç də təsadüfi deyildir. Buna görə də mən Cəmil müəllimin alim ömrünü «Xarı bülbül»lə başlanan alim ömrü kimi xəyalımda canlandırmışam. Artıq söylədiyimiz kimi, Cəmil müəllim doğma Şuşamızın dilbər guşəsində dünyaya göz açıb, həmçinin tarixinə qəmli səhifələr yazılmış Ağdamımızda boya-başa çatıb, ərsəyə gəlmişdir. Cəmil müəllim bütün Qarabağ mahalına, bütöv Azərbaycanımıza doğma oğul kimi xidmətlər göstərmiş, xalqımızın, ölkəmizin tarixinin

obyektiv, sədaqətlə işıqlandırılmasında əvəzsiz elmi səylər göstərmişdir. Elə indicə bəhs etdiyimiz Dağlıq Qarabağ problemi, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Cəmil müəllim gecə-gündüz bilmədən nə qədər tutarlı faktları, tarixi mənbələri, arxiv sənədlərini üzə çıxarmış, öz alim təhlilində böyük oxucu auditoriyasına təqdim etmişdir. Erməni tarixçilərinin Dağlıq Qarabağ barədə yol vermiş olduqları saxtakarlıqları alt-üst edən elmi fakt və dəlillər də bu qədildəndir. Cəmil müəllimin Zori Balayanın «Ocaq» adlı bədnam kitabına verdiyi kəskin elmi-tənqidi təhlil də buna misal ola bilər.

1988-ci ilin aprel ayının 6-da Moskvada keçmiş SSRİ Elmlər Akademiyasının Rəyasət Heyətində akad. A.F.Fedoseyevin sədrliyi ilə keçirilən və Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş müşavirəni yada salmaq istərdim. Müşavirədə Azərbaycanın və Ermənistanın tarixçi və digər alimləri iştirak edirdilər. Bizim tərəfimizdən akademiklər – Z.Bünyadov, C.Quliyev, İ.Əliyev, B.Nəbiyev və digərləri həmin müşavirədə itirak edirdilər. O vaxtkı Partiya Tarixi İnstitutunun elmi işlər üzrə direktor müavini kimi bu müşavirədə iştirak etmək və çıxış etmək mənə də nəsib olmuşdu. Cəmil müəllimin elmi cəhətdən tutarlı dəlillərə əsaslanan kəskin tənqidi çıxışını, Dağlıq Qarabağ münaqişəsinin tarixinə və mahiyyətinə dair elmi mülahizələrini indii də xoş təəssüratlarla yad edirəm.

Nəriman Nərimanovla və onun Dağlıq Qarabağ probleminin həllində tutduğu mövqenin daha aydın başa düşülməsi üçün Cəmil müəllimin «Toplu»suna və həmçinin tarixi faktlara əsaslanaraq bəzi təfərrüatları nəzərə çatdırmağı lazım bildim. Bu, bir tərəfdən, Dağlıq Qarabağın Ermənistandan alınıb Azərbaycana «bağışlanması» haqqında elə bu günlərimizdə də səslənən erməni uydurmasının ifşası baxımından, ikincisi, Nəriman Nərimanovun siyasi mövqeyinin düzgün dərk edilməsi üçün olduqca əhəmiyyətlidir. Cəmil müəllimin öz əsərində qeyd etdiyi kimi, N.Nərimanovun cəsarətli, prinsipial mövqeyi olmasaydı, 1921-ci ilin yayında Dağlıq Qarabağ artıq Ermənistana verilmiş olardı. Bu məsələyə bir qədər aydınlıq gətirək. Məlumdur ki, 1921-ci ilin 4 iyulunda RK(b)P-nın Qafaz bürosunun 8 üzvünün (Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Kirov, Nazaretyan, Oraxelaşvili və Fiqatner), həmçinin RK(b)P MK-nın üzvü Stalinin, Qafqaz bürosunun katibi Breytmanın və Gürcüstan KP MK-nın 3 üzvünün iştirakı ilə «Qarabağ məsələsi»nin müzakirəsində iki nöqteyi-nəzər aşkar oldu. Qarabağın Azərbaycanın tərkibində qalmasına səs verdilər: Nərimanov, Maxaradze, Nazaretyan. Bunun əleyhinə səs verdilər: Orconikidze, Myasnikov, Kirov, Fiqatner. Bütün yerli əhalinin – ermənilərin və müsəlmanların iştirakı ilə Qarabağda referendum keçirilməsinə Nərimanov, Maxaradze səs verdilər. Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə verilməsinə Orconikidze, Myasnikov, Kirov, Fiqatner səs verdilər. Referendumun Qarabağın yalnız dağlıq hissəsində, yəni başlıca olaraq erməni əhalisi içərisində keçirilməsinə Orconikidze, Myasnikov, Kirov, Fiqatner və Nazaretyan tərəfdar çıxdılar. Plenum qərara aldı: «Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, ümumxalq səs verməsi yalnız Dağlıq Qarabağda keçirilsin».

N.Nərimanov prinsipial, qətiyyətli mövqe tutaraq belə bir bəyanatla çıxış etdi: «Qarabağ məsələsi bütün Azərbaycan üçün əhəmiyyət kəsb etdiyinə görə bu məsələnin RK(b)P MK-nın qəti müzakirəsinə verilməsini zəruri hesab edirəm». Qafqaz bürosu N.Nərimanovun bu bəyanatını nəzərə alaraq, yeni qərar verdi: «Qarabağ məsələsi ciddi fikir ayrılığına səbəb olduğuna görə RK(b)P MK-nın Qafqaz bürosu bu məsələnin qəti həll olunması üçün RK(b)P MK-sına verilməsini zəruri

hesab edir» (s.578).

Cəmil müəllimin də qeyd etdiyi kimi, belə bir sual ortaya çıxır: plenumda yaranmış mürəkkəb situasiyada bəs Stalin nə mövqe tutmuşdu? Tarixi sənədlərə görə plenumda Qarabağ məsələsi müzakirə edilərkən Stalin nə çıxış etməmiş, nə də səsvermədə iştirak etməmişdir. Stalinin bir sıra çıxışlarından da məlumdur ki, Zaqafqaziya Sovet respublikaları arasında sərhədlərin müəyyən edilməsi məsələsində Stalin ikili mövqe tutmuş, konkret tarixi vəziyyətdən asılı olaraq fikirlərini dəyişmişdir. Cəmil müəllimin də qeyd etdiyi kimi, Stalin son nəticədə regionun ermənilərin yığcam yaşadıqları bir sıra ərazilərinin Ermənistana birləşdirilməsinə tərəfdar çıxmışdır. Məsələn, Stalin Dağlıq Qarabağın Sovet Ermənistanına verilməsinə rəğbətlə yanaşmışdır. Bu halda Stalinin guya Dağlıq Qarabağı Azərbaycana «bağışlaması» haqqında erməni uydurması nə qədər məntiqsiz səslənir.

Cəmil müəllimin yazdığı kimi, Qafqaz bürosunun Dağlıq Qarabağa dair qərarının Azərbaycanın xeyrinə dəyişdirilməsində Nərimanov misilsiz rol oynamışdır. Məhz onun qətiyyəti sayəsində Qafqaz bürosu, görünür ki, məsələnin mahiyyətinə dərindən nüfuz edərək və həmin məsələnin obyektiv həllinin əhəmiyyətini nəzərə alaraq elə səhərisi gün, yəni bir gün sonra Orconikidze və Nazaretyanın təklifi ilə özünün əvvəlki qərarını dəyişmişdir.

1921-ci ilin 5 iyulunda RK(b)P MK-nın Qafqaz bürosu tam tərkibdə və Stalinin, həmçinin Azərbaycan SSR-in xarici işlər üzrə xalq komissarı M.D.Hüseynovun iştirakı ilə, 3 nəfərin bitərəf olması ilə qərara aldı: «Müsəlmanlar və ermənilən arasında milli sülhün zəruriliyini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqəsini, onun Azərbaycanla daimi əlaqəsini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-nin hüdudları daxilində saxlanılsın. Dağlıq Qarabağa inzibati mərkəzi Şuşada olmaqla geniş vilayət muxtariyyatı verilsin, Azərbaycan K(b)P MK-na tapşırılsın ki, muxtar vilayətin sərhədlərini müəyyən etsin» (s.579). Əgər oxucularımız Dağlıq Qarabağın sonrakı taleyi barədə məlumat almaq istəsələr, yenə də Cəmil müəllimin əsərinə müraciət edə bilərlər və sözsüz ki, lazımi tarixi sənədlərlə tanış olmaq imkanı əldə edəcəklər.

Azərbaycana, Azərbaycan tarixinə dair həqiqətlərin ermənilər tərəfindən qəsdən təhrif edilməsinin ifşası baxımından Cəmil müəllimin marşal İ.X.Baqramyanın **«Mənim xatirələrim»** (s.292) adlı yazısı barədə tənqidi düşüncələrinə diqqət yetirməyi lazım bildik. Cəmil müəllim Marşal İ.X.Baqramyanı bunda təqsirləndirir ki, o, Andronikin, erməni qoşun dəstələri və hissələrinin fəaliyyətini birtərəfli şərh edir. Müəllif yalnız bir yerdə, özü də ötəri və dumanlı şəkildə xatırladır ki, Andronik özünün bütövlükdə mütərəqqi fəaliyyətində siyasi xarakterli bir sıra səhvlərə yol vermişdir. «Bununla belə Andronik erməni xalqının nəzərində milli azadlıq hərəkatının parlaq əfsanəvi qəhrəmanı kimi qalmaqda davam edir». Cəmil müəllim qeyd edir ki, Zaqafqaziyanın tarixində müdhiş iz buraxmış Andronikin əsassız olaraq təriflənməsi Baqramyanın çox ciddi səhvidir və onun xatirələrinin ideya səviyyəsini kəskin şəkildə aşağı salır (s.295).

Əvvəldə qeyd etdiyimiz kimi, haqqında bəhs etdiyimiz kitabda Cəmil müəllimin həmçinin məruzə və çıxışları, bir sıra qəzet və jurnal məqalələri də toplanmışdır. Bir qayda olaraq ümumiyyətlə məruzə və çıxışlar, qəzet məqalələri populyar xarakter daşıyır, elmi dərinlik cəhətdən o qədər də fərqlənmir. Lakin cəsarətlə demək olar ki, Cəmil müəllimin haqqında bəhs etdiyimiz yazılarına, məruzə və çıxışlarına dərin elmilik, ciddi təhlil, fikir aydınlığı xasdır. Belə desək qətiyyən səhv etmərik ki, Cəmil

müəllim çox güclü, ötkəm fəlsəfi təfəkkürə malikdir. O, elm tarixinə, o cümlədən fəlsəfi fikir tarixinə müraciət edərkən, keçmiş dövrlərin görkəmli mütəfəkkirlərindən söz açarkən bunun bilavasitə şahidi oluruq. Onun böyük Azərbaycan alimi, dahi mütəfəkkiri Nəsirəddin Tusinin elmi irsinin təhlilinə və şərhinə həsr olunmuş yazısı çox maraqla oxunur və belə təsəvvür yaranır ki, Cəmil müəllim bu cür materiallar üzərində işləyərkən mükəmməl elmi-fəlsəfi mütaliə ilə məşğul olur. Tixo Brageyə, Nizami, Nəsimi və Füzuliyə, M.F.Axundova, M.Kazım bəyə, İsmayıl bəy Qaspıralıya, Ə.M.Topçubaşova həsr olunmuş yazıları da söylədiyimiz bu fikri bir daha təsdiq edir. Cəmil müəllimin Respublikamızın dünyasını dəyişmiş və yaxud hal-hazırda həyatda olan elm xadimlərinə həsr olunmuş yubiley yazıları da öz elmi ciddiliyi ilə seçilir.

Bir cəhətə diqqət yetirək. Akademik Cəmil Quliyev tarix elmi haqqında olduqca maraqlı mülahizələr irəli sürür, gənc tədqiqatçılar üçün faydalı tövsiyələr söyləyir, tarix elmi sahəsində bilərəkdən və ya bilməyərək yol verilmiş təhrif və saxtakarlıqlara qarşı kəskin çıxışlar edir, tarix elmini bir sistem kimi nəzərdən keçirir, onun tərbiyəvi, idraki rolunun təhlilinə diqqət yetirir. Yaxşı məlumdur ki, Cəmil müəllim Azərbaycan xalqının yaranması problemləri ilə əlaqədar bu gün də əhəmiyyətli olan fikirlər söyləyir. Bu məsələlər bəhs etdiyimiz kitabda həm müstəqil, həm də ayrı-ayrı mətnlər boyu şərh olunur.

Cəmil müəllimin vaxtı ilə Ali Attestasiya Komissiyası, Azərbaycan Milli Elmlər Akademiyasının işinin təkmilləşdirilməsi, təhsil problemləri ilə bağlı söyləmiş olduğu mülahizə və təklifləri də kitabda həmçinin mühüm yer tutur. Ensiklopedik nəşrlərin, o cümlədən Azərbaycan Ensiklopediyasının strukturu və hazırlanması ilə əlaqədar söylədiyi dəyərli tövsiyələr bu günümüz üçün də əhəmiyyətini saxlamaqdadır. Bunlar oxucunun diqqətini cəlb etməyə bilmir.

Xatırladaq ki, Cəmil müəllim dünyanın bir çox ölkələrində səfərlərdə olmuş, çox nüfuzlu elmi simpozium və konfranslarda Azərbaycan elminin bir təmsilçisi kimi iştirak etmiş, elmi məruzə və çıxışlarında dəyərli mülahizələr söyləmişdir. Kitabda bu barədə ətraflı və dolğun məlumat verilmişdir.

Cəmil müəllimin vaxtilə müxtəlif partiya və sovet orqanlarına, o cümlədən Azərbaycan Ali Sovetinə, Azərbaycan KP MK-nə, xüsusilə də şəxsən ümummilli liderimiz Heydər Əliyevə ünvanlanmış müraciət və məktubları, bəzi hesabat xarakterli yazı və qeydləri topluda öz əksini tapmışdır. Bunlar istər bir şəxsiyyət kimi, istərsə də müqtədir qələm sahibi, görkəmli tarixçi alim kimi Cəmil müəllimin həyat yoluna nəzər salmaq üçün, bu mənalı ömür yolunu onunla birlikdə addımlamaq üçün olduqca əhəmiyyətlidir. Böyük türk şairi Ziya Paşanın «Ayinəsi işdir kişinin, lafa baxılmaz, şəxsin görünür rütbeyi-əqli əsərindən» sözləri bir daha yada düşür. Bu yazılarda Cəmil müəllimin siyasi mövqeyi, Vətənə bağlılığı, vətənpərvərliyi, alim rəşadəti, xalqımızın hazırda düçar olduğu niskilli məqamlarla əlaqədar keçirdiyi hiss və həyəcanlar öz əksini tapmışdır. Bunu da nəzərə almalıyıq ki, Cəmil müəllimin bəhs etdiyimiz kitabında verilmiş yazılar, qeydlər 50 ili əhatə edən bir zaman kəsiyində ərsəyə gəlibdir. Uzun illərin elmi yaşantı və təəssüratlarının nəfis bir topluda yığılıb, çap olunmasını çox müsbət nümunə kimi qəbul edib, təqdir edirəm. Cəmil müəllimin qələmi həmişə kəsərli olsun, yenə də yazıb, yaratsın.

## ƏDƏBİYYAT


1. Cəmil Quliyev. Tarix, düşüncələr, mülahizələr, qeydlər… (1953-2003). Bakı: Elm, 2004, 764 s.
2. Tofiq Köçərli. Erməni saxtakarlığı. Bakı: Şərq-Qərb ASC, 2002, 80 s.
3. Фазил Гаджи. История Карабаха в источниках XVIII-XIX вв. Баку: Şərq-Qərb ASC, 2002, 221 с.


## СОЦИОЛОГИЧЕСКОЕ ОСМЫСЛЕНИЕ ИСТОРИЧЕСКИХ ИСТИН
### (в контексте научного творчества акад. Дж.Кулиева за 50 лет)


**И.А.РУСТАМОВ**


**РЕЗЮМЕ**


В статье охвачено научное творчество Дж.Кулиева за 1953-2003 годы. Здесь осуществлен философско-социологический подход к научной позиции Дж.Кулиева в понимании ряда исторических вопросов, касающихся исторической судьбы Азербайджана и азербайджанского народа, в частности, дана философско-социологическая характеристика идеям и мыслям Дж.Кулиева о первой Народно-Демократической Республике, о Наримане Нариманове, проблеме Нагорного Карабаха, о критическом подходе ученого к «Воспоминаниям» Маршала И.Х.Баграмяна, а также в статье нашли свое осмысление мысли академика о проблеме развития науки в Азербайджане, усовершенствования системы работы Национальной Академии Наук, о новом подходе к подготовке академических и энциклопедических изданий. В целом, в статье охвачен широкий круг вопросов, которых касается Дж.Кулиев.


## SOCİAL COMPREHENSİON OF THE HİSTORİCAL TRUTH
### (In the context of academician J.Quluyev's within fifty year)


**I.A.RUSTAMOV**


**SUMMARY**


The article covers J.Quliyev's scientific activity during the years of 1953-2003. The author carries out some philosophical-social approach to J.Quluyev's scientific position concerning the historical fate of Azerbaijan and the Azerbaijani people, particularly philosophical-social characteristics of J.Quliyev's ideas and thoughts about the 1st National Democratic Republic, about Nariman Narimanov, on the problem of Nagorno Garabagh, on critical approach of the scientist to the «memoirs» of Marshal I.Kh. Bagramyan, as well as the academician's thoughts about the development of science in Azerbaijan, improvement of the work system of National Academy of Sciences, on a new approach to the preparation of the academic and the encyclopaedic publications. İn the whole, the article covers a great deal of questions concerning J.Quluyev, of course.